

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 215 (21.367)**

***3 noyabr 2015-ci il, çərşənbə axşamı***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**

*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də MDB İcraiyyə Komitəsinin sədri, Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə MDB-dən müşahidəçi missiyasının rəhbəri Sergey Lebedevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Milli Məclisə seçkilərdən danışan Sergey Lebedev dedi: "Biz məmnunluqla və birmənalı şəkildə bildiririk ki, Milli Məclisə seçkilər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilib və ölkə vətəndaşları azad seçim imkanı ilə tam təmin olunub".

Dövlətimizin başçısı MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedevin rəhbərlik etdiyi təşkilatın ölkə qanunvericiliyinə əsaslanan obyektiv yanaşmasının və qətiyyən siyasiləşdirilməmiş mövqeyinin önəmini qeyd etdi. Daha sonra Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın dəvətinə baxmayaraq, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu əsassız sayda müşahidəçilərin ölkəyə gəlməsini israr etdi. Dövlətimizin başçısı dedi ki, onlara müşahidəçilərin sayının ölkə əhalisinin sayına uyğunlaşdırılması təklif olunduqda seçkiləri müşahidə etməkdən imtina etdilər. Dövlətimizin başçısı bütün bunlara baxmayaraq, Avropa Şurasının Parlament Assambleyasını, Müstəqil Dövlətlər Birliyini, digər beynəlxalq strukturları və ölkələri təmsil edən çoxsaylı müşahidəçilərin seçki prosesini izlədiklərini vurğuladı.

## Muzeylər ziyarət olunur



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq, muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi davam edir.***

Oktyabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Naxçıvan şəhərindəki Xatirə Muzeyində olmuşlar.

Məlumat verilmişdir ki, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş həmyerlilərimizin xatirəsini əbədiləşdirmək məqsədilə yaradılmış muzeyin fondunda 1500 eksponat saxlanılır ki, onlardan 400-ə yaxını ekspozisiyada nümayiş etdirilir. Nümayiş etdirilən eksponatların hər biri tariximizin qanlı və şanlı səhifələrini özündə əks etdirir. Burada, əsasən, şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda Azərbaycan Respublikasının Milli qəhrəmanları və Sovet İttifaqı qəhrəmanlarının fotoşəkilləri və onlara aid materiallar qorunur. Muzeydəki 1918-1920-ci illərdə Naxçıvanda ermənilərin törətdikləri qanlı cinayətlər, 1937-1938-ci illərin repressiya qurbanları, 1941-1945-ci illər müharibəsinin Naxçıvandan olan iştirakçıları, eyni zamanda ən yeni tariximizdə baş vermiş 20 Yanvar, Xocalı soyqırımı hadisələri haqqında eksponatlar bu tarixi dövrlər haqqında ətraflı məlumatlar verir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivləri də Xatirə Muzeyində olmuşlar.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Milli Təhlükəsizlik və Daxili İşlər nazirliklərinin kollektivləri Bəhruz Kəngərli Muzeyini, Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin, Dövlət Gömrük Komitəsinin əməkdaşları Cəlil Məmmədquluzadənin ev-muzeyini, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin əməkdaşları isə Hüseyn Cavidin ev-muzeyini ziyarət etmişlər.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Babək rayonunun Qoşadizə kənd inzibati ərazi dairəsi tərkibindəki Qoşadizə kəndinin 658 ha (bundan dövlət mülkiyyətində olan 28 ha, bələdiyyə mülkiyyətində olan 311 ha və xüsusi mülkiyyətdə olan 319 ha) təşkil edən ərazisi bu Qanuna əlavə edilmiş xəritəyə uyğun olaraq, Babək qəsəbə inzibati ərazi dairəsi tərkibindəki Babək qəsəbəsinin ərazisinə birləşdirilsin.

Maddə 2. Babək rayonunun Qoşadizə kənd inzibati ərazi dairəsi ləğv edilsin. Babək rayonunun Qoşadizə kənd inzibati ərazi dairəsi və onun tərkibindəki Qoşadizə kəndi Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrindən çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 30 sentyabr 2015-ci il*

## "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1342-IVQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1342-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 30 oktyabr 2015-ci il*

## Babək rayonunun daha iki kəndində aparılan quruculuq işləri başa çatmaq üzrədir













***Babək rayonunda həyata keçirilən quruculuq tədbirlərinin davamı olaraq, rayonun Yarımca kəndində yeni obyektlər – kənd mərkəzi, həkim ambulatoriyası və xidmət mərkəzi inşa edilib. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin tikintisini həyata keçirdiyi obyektlərdə hazırda son tamamlama işləri aparılır.***

Kənd yaşayış məntəqələrində yeni tibb müəssisələrinin tikintisi, onların müasir avadanlıqlarla təchiz olunması muxtar respublikada həyata keçirilən səhiyyə islahatlarının mühüm istiqamətlərindəndir. İş icraçısı Faiq Allahverdiyevin bildirdiyinə görə, iki mərtəbədən ibarət həkim ambulatoriyası binasında boya işləri başa çatdırılıb. Həkim ambulatoriyası ilə paralel inşaatı aparılan kənd mərkəzinin binası isə zirzəmi ilə birlikdə 3 mərtəbəlidir. Hazırda binanın fasadında boya işləri gedir.

Kənddə inşa edilən xidmət mərkəzinin binasında da işlər yekunlaşmaq üzrədir. Hazırda binanın ətrafında abadlıq işləri aparılır, işıqlandırma sistemləri quraşdırılır. Hər üç obyektin fasiləsiz elektrik enerjisi ilə təmin olunması üçün məktəbin yaxınlığında yeni transformator quraşdırılıb.

Yarımcada görülən işlər bununla məhdudlaşmır. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Babək Rayon İdarəsi tərəfindən Yarımca kəndindəki məktəb binasında əsaslı təmir işləri həyata keçirilib. Məktəb binasının arxa tərəfində qazanxana və bufet üçün yeni bina inşa edilib. Məktəbin həyətində genişmiqyaslı abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, işıqlandırma sistemləri quraşdırılıb. İş icraçısı Məhərrəm Novruzovun bildirdiyinə görə, hazırda məktəbin həyətindəki köhnə tikililər sökülür, binanın yerləşdiyi ərazi abadlaşdırılır, yaxınlıqdakı hasarlar suvanır. Bundan başqa, "Naxçıvanqaz" İstehsalat Birliyinin əməkdaşları kəndin ərazisindən keçən qaz xətlərini yeniləyirlər.

Babək rayonunun daha bir yaşayış məntəqəsində – Xəlilli kəndində yeni məktəb binasının, kənd və xidmət mərkəzlərinin inşası da yekunlaşmaq üzrədir. Hazırda obyektlərdə son tamamlama işləri həyata keçirilir, ətraf ərazilər abadlaşdırılır, yaşıllıqların salınması üçün hazırlıq işləri görülür, işıqlandırma sistemləri quraşdırılır. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan, 144 şagird yerlik məktəb binasında 12 sinif otağı, elektron lövhəli siniflər, fənn kabinələri, laboratoriyalar, idman zalı müəllim və şagirdlərin ixtiyarına veriləcək.

Kənddə inşası tamamlanmış daha bir obyekt isə kənd mərkəzi üçün nəzərdə tutulub. Bina iki mərtəbədən ibarətdir. Burada kənddə fəaliyyət göstərən dövlət qurumlarının hər biri üçün ayrıca iş otaqları ayrılacaq. Mərkəzdə polis sahə, baytarlıq və feldşer-mama məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə fəaliyyət göstərəcək.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin əməkdaşı Əliağa Piriyevlə söhbətimizdə bildirdi ki, kənddə inşa edilən xidmət mərkəzində də işlər yekunlaşıb. Kollektivin səylə çalışması belə deməyə əsas verir ki, adıçəkilən obyektlər yaxın vaxtlarda kənd sakinlərinin ixtiyarına veriləcək.

**Xəbərlər şöbəsi**

*Azərbaycan xalqının möhtəşəm ədəbi abidəsi, xalqımızın tarixi keçmişini, vətənpərvərliyini, qəhrəmanlığını, müdrikliyini, fəlsəfəsini, folklorunu, saz-söz sənətini, coğrafiyasını, dünyagörüşünü, mənəvi dəyərlərini, adət-ənənələrini, mədəniyyətini, toponimlərini özündə əks etdirən, yaranma tarixi daha əvvəlki dövrlərə təsadüf etsə də, XI yüzillikdə qələmə alınan "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycanda keçən yüzilliyin 30-cu illərindən tədqiq olunmağa başlamışdır. Ancaq təəssüf ki, az sonra onun tədqiqinə yasaq qoyulmuşdur.*

# Azərbaycanda "Kitabi-Dədə Qorqud" dastanlarının tədqiqi və təbliği istiqamətində tarixi addımlar atılmışdır



Dastan Azərbaycan K(b)P-nin 1951-ci ilin may ayında keçirilən XVIII qurultayında şiddətli tənqid obyektinə çevrilmiş,"başdan-başa soyğunçuluq və qırğın məqsədilə Azərbaycana gələn Oğuz köçəri tayfalarının hakim yuxarı təbəqəsini təriflməyə həsr edilmiş", "millətçilik zəhəri ilə dolu", "müsəlman olmayan başqa xalqlara, əsasən, gürcü və erməni xalqlarına qarşı yazılmış" kitab kimi xarakterizə edilmişdir. Bundan sonra tədqiqinə bir neçə il ciddi yasaq qoyulan, hətta oxunması belə, qadağan edilən dastan yalnız 1957-ci ildən sonra tədricən tədqiqat obyektinə çevrilmişdir. Həmin vaxtdan keçən müddət ərzində bu sahədə bir sıra uğurlu tədqiqatlar aparılmışdır.

Bu sahədə ən böyük addımlar keçən yüzilliyin 70-80-ci illərində atılmışdır. Ümummilli lider Heydər Əliyevin 1969-cu ilin iyulunda Azərbaycanda siyasi hakimiyyətə gəlişindən sonra mədəniyyətimizin bütün sahələri kimi, "Kitabi-Dədə Qorqud" dastanına, onun genişmiqyaslı, dərindən, hərtərəfli tədqiqinə də diqqət artırılmışdır. Nəticədə, "Kitabi-Dədə Qorqud" dastanının müxtəlif problemləri tədqiqata cəlb olunmuş, bununla əlaqədar Ş.Cəmşidovun, S.Əlizadənin, Ə.Sultanlının, M.Təhmasibin, E.Əlibəyzadənin, T.Hacıyevin və başqalarının əsərləri nəşr olunmuşdur. Bütün təzyiqlərə baxmayaraq, 1975-ci ildə Anarın ssenarisi əsasında ikiseriyalı "Dədə Qorqud" filmi çəkilmişdir.

Dastanın tədqiqi və təbliği ümummilli liderin Azərbaycanda siyasi hakimiyyətinin ikinci dövründə də davam etdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti kimi bir sıra beynəlxalq tədbirlərdə çıxış edən ümummilli lider dəfələrlə "Kitabi-Dədə Qorqud" dastanından bəhs etmiş, onu yüksək qiymətləndirmişdir. Bu baxımdan ulu öndərin türkdilli dövlətlərin 21 oktyabr 1996-cı ildə Daşkənd şəhərində keçirilən IV forumunda dediyi sözlər çox qiymətlidir: ***"Dədə Qorqud", "Manas", "Alpamış" kimi minillik tarixə malik eposlarımız bizim mədəni sərvətimizdir, xalqlarımızın yüksək mənəviyyatının və əxlaqının təməlidir, bizi xeyirxahlıq və humanizm ruhunda yetişdirmiş ümumi qaynaqlardır".***

Ulu öndər Heydər Əliyev 20 aprel 1997-ci ildə "Kitabi-Dədə Qorqud"un 1300 illiyi haqqında" Fərman imzalamışdır. Fərmanda xüsusi olaraq vurğulandığı kimi, "yüksək bəşəri ideyalar tərənnümçüsü kimi dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olmuş" dastanın yubileyi ilə əlaqədar yaradılan dövlət komissiyasına Azərbaycan Respublikasının Prezidenti kimi ulu öndərin özünün sədrlik etməsi onun "Kitabi-Dədə Qorqud" dastanına nə qədər böyük hörmət və ehtiramla yanaşdığının çox böyük göstəricisidir. Fərmanın imzalanmasından sonra "Kitabi-Dədə Qorqud"un tədqiqi, nəşri və təbliği sahəsində möhtəşəm tədbirlər həyata keçirilmişdir. Ümummilli liderin "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının 14 aprel 2000-ci ildə keçirilən yekun iclasında qeyd etdiyi kimi, "hər bir kollektivdə, hər bir şəhərdə, hər bir rayonda, hər bir qəsəbədə, kənddə Dədə Qorqud yada salındı, təbliğ olundu, Dədə Qorqudun tanınması üçün xeyli işlər görüldü". İkicildlik "Kitabi-Dədə Qorqud" Ensiklopediyasının hazırlanaraq nəşr olunması çox mühüm hadisəyə çevrilmişdir.

2000-ci il aprelin 9-da Bakı şəhərində "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Ümummilli lider Heydər Əliyevin dəvəti ilə yubiley mərasimində bir sıra dövlət, hökumət və beynəlxalq təşkilatların rəhbərlərinin, o cümlədən Türkiyə, Qazaxıstan, Qırğızıstan prezidentlərinin, Özbəkistan Ali Məclisi Sədrinin, Türkmənistan Məclisi Sədrinin, YUNESKO baş katibinin və başqalarının, həmçinin bir sıra görkəmli alimlərin iştirak etməsi ulu öndərin "Kitabi-Dədə Qorqud" dastanına nə qədər böyük önəm verdiyinin, ona yüksək hörmət və ehtiramının bariz nümunəsidir.

Yubiley Naxçıvan Muxtar Respublikasında da geniş qeyd olunmuşdur. Naxçıvan şəhərində bu münasibətlə beynəlxalq simpozium keçirilmişdir. Dədə Qorqudun xatirəsini əbədiləşdirmək məqsədilə Naxçıvan şəhərində Dədə Qorqudun abidəsi ucaldılmışdır.

Bir sıra xalqlar Oğuz türklərinə, ilk növbədə, Azərbaycan xalqına məxsus olan, Türkmənistan alimi, akademik Ordalovun da təsdiq etdiyi kimi, ilk dəfə Azərbaycanda yaradılan "Kitabi-Dədə Qorqud" dastanının özlərinə məxsus olduğunu qeyd edirlər. Ümummilli lider Heydər Əliyev 10 aprel 2000-ci ildə Türkiyənin səhiyyə naziri Osman Durmuş ilə söhbətində bu məsələyə toxunaraq demişdir: ***"Türkiyə deyir ki, "Kitabi-Dədə Qorqud" bizimdir, qazax deyir, bizimdir, türkmən deyir, bizimdir, Azərbaycan deyir, bizimdir, özbək deyir, bizimdir. Bu da çox gözəldir. O hamımındır. Yəni "Kitabi-Dədə Qorqud" türkdilli ölkələrin hamısına mənsubdur".*** Ancaq dastanın yubileyinin Prezident fərmanı ilə qeyd olunması ilk dəfə ancaq Azərbaycanda baş vermişdir.

Dünya xalqlarının ən möhtəşəm şifahi xalq ədəbiyyatı nümunələri ilə bir sırada duran, onların içərisində özünəməxsus yer tutan, böyük türk alimi Fuad Köprülünün "bütün türk ədəbiyyatını tərəzinin bir gözünə, "Kitabi-Dədə Qorqud"u o birinə qoysanız, yenə də Dədə Qorqud tərəf ağır gələr" kimi dəyərləndirdiyi, yaranma tarixi haqqında müxtəlif fikirlər olan bu dastanla əlaqədar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 20 aprel 1997-ci ildə imzaladığı "Kitabi-Dədə Qorqud"un 1300 illiyi haqqında" Fərmandan sonra YUNESKO Beynəlxalq Mədəniyyət Təşkilatı 1998-ci ili "Dədə Qorqud ili" elan etmişdir. YUNESKO kimi nüfuzlu bir təşkilatın "Kitabi-Dədə Qorqud" dastanına belə yüksək önəm verməsi, onun 1300 illiyinin qəbul olunması beynəlxalq elmi ictimaiyyət tərəfindən dastanın ən azı 1300 il bundan əvvəl yaranması fikrinin qəbul olunması deməkdir. Azərbaycan xalqının, bütün türk xalqlarının tarixi abidəsi, mədəniyyət abidəsi, elm abidəsi, fəlsəfə abidəsi olan "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin qeyd edilməsini Azərbaycanın çoxəsrlik tarixində indiyə qədər qeyd edilmiş bayramların, yubileylərin hamısından üstün olduğunu vurğulayan ümummilli lider Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi şərəfinə Azərbaycan Prezidenti adından "Gülüstan" sarayında təşkil olunmuş rəsmi qəbulda çıxışı zamanı diqqəti bu cəhətə yönəldərək qeyd etmişdir ki, "Kitabi-Dədə Qorqud"un bizim xalqımıza – Azərbaycan xalqına yenidən qayıtmasına nail olduq. "Kitabi-Dədə Qorqud"un 1300 il yaşı olduğunu bütün dünyaya bəyan etdik. Tarixdə – nəinki Azərbaycan tarixində, dünya tarixində "Kitabi-Dədə Qorqud"un yaşı dəqiq, düzgün müəyyən olundu.

"Kitabi-Dədə Qorqud"u "ana kitabımız, Dədə Qorqudu isə ulu babamız, əcdadımız" kimi dəyərləndirən ümummilli lider Heydər Əliyev dastanın və Dədə Qorqudun xatirəsinin əbədiləşdirilməsinə böyük önəm verirdi. Ulu öndərimiz 1999-cu ilin əvvəlində və 11 mart 2000-ci ildə "Kitabi-Dədə Qorqud" dastanının yubileyi üzrə Dövlət Komissiyasının Prezident sarayında keçirilən iclasında bu məsələyə toxunmuş, Bakının ən gözəl yerlərindən birində Dədə Qorqud parkının salınması və Dədə Qorqudun heykəlinin qoyulması barədə tövsiyə və tapşırıqlar vermişdir.

Fərmandan sonra tədqiqi sahəsində yeni mərhələ başlayan dastan haqqında aparılan son tədqiqatlar sübut edir ki, Dəmir qapı Dərbənddən başlamış Borçalı çökəyinə, Gəncəbasara, Qarsa, Ərdahana, Göyçə gölünə, Ağrı dağına, Naxçıvana, Əlincə qalasına, Bayburta, Ərzuruma, Diyarbəkrə, Vana qədər çox geniş bir coğrafi ərazidə cərəyan edən hadisələri özündə əks etdirən, eyni zamanda qədim türk xalqlarının bədii təfəkkürünün qiymətli incisi, Azərbaycan xalqına məxsus, məşhur Qorqudşünas Ş.Cəmşidovun təbirincə desək, "tarixçi üçün xalqımızın tarixi, ədəbiyyatşünas üçün onun epopeyası, etnoqraf üçün isə milli əlamətlər salnaməsi" olan dastan, orada haqqında bəhs olunan hadisələr Naxçıvan bölgəsi ilə sıx bağlı olmuşdur. Bunu təsdiq edən əsas faktlardan biri dastanda özünə yer alan, tarixin çox sanballı qaynaqlarından sayılan yer adları – toponimlərdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan diyarının və ona qonşu olan bölgələrin "Kitabi-Dədə Qorqud" dastanları ilə səsləşən yer adlarını, xalq ədəbiyyatı nümunələrini daha dərindən və əhatəli şəkildə öyrənilməsini tədqiqatçıların qarşısında aktual vəzifə kimi müəyyənləşdirmişdir. Bu vəzifəyə uyğun olaraq, Naxçıvanda qeyd olunan istiqamətdə tədqiqatlar genişləndirilmişdir. Bu sahədə Naxçıvan Dövlət Universiteti Elmi Şurasının qərarı ilə "Kitabi-Dədə Qorqud" dastanlarında Naxçıvan toponimləri" mövzusunda doktorluq dissertasiyası üzərində işləyən, sonralar AMEA-nın müxbir üzvü seçilən, professor S.Babayevin apardığı tədqiqatlar xüsusilə diqqəti cəlb edir. Onun 1999-cu ildə nəşr etdirdiyi "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri" monoqrafiyası göstərir ki, "Kitabi-Dədə Qorqud" dastanında Naxçıvanla əlaqədar 50-dən artıq toponim və mikrotoponim vardır.

"Kitabi-Dədə Qorqud" dastanına göstərilən yüksək dövlət qayğısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir. Dövlət başçısının 2004-cü ildə Belçikanın paytaxtı Brüssel şəhərində, Dünya Gömrük Təşkilatının iqamətgahı qarşısında Dədə Qorqud abidəsinin açılışında iştirak və çıxış etməsi onun möhtəşəm eposa verdiyi dəyərin yüksək ifadəsi idi. Mərasimdəki çıxışında Azərbaycan Prezidenti demişdir: ***"Mən bu gün burada, Ümumdünya Gömrük Təşkilatının binası qarşısında olmaqdan və Dədə Qorqudun abidəsinin açılmasından çox xoşbəxtəm. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının yaratdığı incilərdən biridir. Onun Azərbaycan xalqı və bütün Türk dünyası üçün qədim tarixi və böyük mənası var. ... Bu ədəbi inci bu gün də yaşayır. "Kitabi-Dədə Qorqud"dakı ideyalar və fikirlər bugünkü nəsil üçün də əhəmiyyət kəsb edir və mən əminəm ki, hələ bir neçə əsrlər boyu öz aktuallığını saxlayacaqdır".***

Fəaliyyətində keçmiş irsə böyük önəm verən Prezident İlham Əliyev 2007-ci ildə imzaladığı "Azərbaycandakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında" Sərəncama əsasən, Dədə Qorqud heykəli və "Dədə Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması ilə bağlı müvafiq tədbirlərin görülməsi haqqında tapşırıq verilmişdir. Beləliklə, ümummilli lider Heydər Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi tapşırığı və himayəsi ilə Bakı şəhərinin Nərimanov rayonunda Dədə Qorqud parkı salınmışdır. Təxminən, 6 hektar sahəni əhatə edən parkda "Kitabi-Dədə Qorqud" abidə-kompleksi yaradılmışdır. Açılış mərasimində ölkə rəhbəri bu abidənin ucaldılmasını böyük hadisə kimi qiymətləndirmiş və demişdir: ***"Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur. Əsərin qəhrəmanlarının adlarını Azərbaycanın çoxsaylı yaşayış məntəqələrində görmək olar. Bu əsərdə Azərbaycan toponimləri əks olunmuşdur. Bir sözlə, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalq ədəbiyyatının yazılı abidəsidir. Bu dastan hər bir azərbaycanlı üçün əzizdir. Bu gün abidənin ucaldılması Azərbaycan xalqının bir daha öz tarixi keçmişinə, mədəniyyətinə olan münasibətinin təzahürüdür".***

Dövlət başçısı çıxışında bu abidənin ümummilli lider Heydər Əliyevin tövsiyə və tapşırıqları, imzaladığı sərəncam əsasında yaradıldığını xüsusi vurğulamışdır: ***"Ulu öndər Heydər Əliyev Dədə Qorqud heykəlinin ucaldılması haqqında sərəncam vermişdir. ...Ulu öndərin sərəncamı ilə Dədə Qorqud heykəlinin məhz bu parkda ucaldılması nəzərdə tutulmuşdur. Sadəcə olaraq, biz ulu öndərin siyasətinə sadiq qalaraq bu işləri başa çatdırdıq. Mən çox şadam ki, bu gün bu gözəl park və abidə açılır".***

Bu il fevralın 20-də "Kitabi-Dədə Qorqud" dastanına dövlət qayğısının yeni bir təzahürünün şahidi olduq. Həmin gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" Sərəncam imzalamışdır. "Kitabi-Dədə Qorqud" dastanının "Basatın Təpəgözü öldürdüyü boy" ilk dəfə alman alimi Fridrix fon Dits tərəfindən alman dilinə tərcümə olunmuş və 1815-ci ildə nəşr etdirilmişdir. Bununla da, "Kitabi-Dədə Qorqud" dastanı elmi dövriyyəyə daxil edilmiş və müxtəlif ölkələrin tədqiqatçılarının tədqiqat obyektinə çevrilmişdir.

Bu il həmin tarixi hadisənin 200 ili tamam olur. Ona görə də Azərbaycan Respublikasının Prezidenti belə bir sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 25 iyul 2015-ci ildə "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı"nı təsdiq etmişdir. Tədbirlər Planına əsasən, "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumunun keçirilməsi, professor Səfərəli Babayevin "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri" monoqrafiyasının yenidən nəşr olunması, "Kitabi-Dədə Qorqud" və Naxçıvan" televiziya filminin hazırlanması, "Kitabi-Dədə Qorqud" dastanı və onun Naxçıvanla bağlılığı mövzusunda açıq dərslərin təşkili, kütləvi informasiya vasitələrində "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş tematik verilişlərin və qəzet materiallarının hazırlanması, keçirilən tədbirlərin işıqlandırılması və sair nəzərdə tutulmuşdur.

Artıq bu sahədə bir sıra tədbirlər reallaşdırılmış, Naxçıvanşünaslıq Mərkəzində açıq dərslər təşkil olunmuş, dəyirmi masalar keçirilmiş, alimlərimiz televiziya və radio verilişlərində çıxışlar etmiş, qəzetlərdə məqalələr nəşr etdirmişlər. Tədbirlər Planına uyğun olaraq, 26-27 oktyabrda AMEA Naxçıvan Bölməsində "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumu keçirilmişdir.

***Şübhəsiz ki, Ali Məclis Sədrinin təsdiq etdiyi Tədbirlər Planından irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar bu işlər bundan sonra da davam etdiriləcəkdir.***

**Fəxrəddin SƏFƏRLİ**
**AMEA-nın müxbir üzvü**

***Naxçıvan Muxtar Respublikasının tarixən sərt iqlimi burada yaşayan insanları hər zaman fəsil dəyişikliklərinə əvvəldən hazır olmağa məcbur edib. Hələ keçmiş zamanlardan buranın sakinləri yay fəslində qışa azuqələrini toplayar, gediş-gəliş üçün yollarda ehtiyat tədbirləri həyata keçirər, soyuqdan qorunmaq üçün odun-kömür tədarükü görərdilər. Zaman keçdikcə qışa hazırlıq tədbirləri də müasirləşmiş, yeni dövrün imkanları qış fəslində insanların daha rahat yaşayışını təmin etmişdir. Artıq neçə illərdir ki, muxtar respublikanın bütün yaşayış məntəqələrinin qazlaşdırılmasının, fasiləsiz elektrik enerjisi ilə təminatın nəticəsidir ki, insanlar qış fəslində heç bir çətinliklə qarşılaşmırlar.***

# Şahbuz rayonunda payız-qış mövsümünə hazırlıq yüksək səviyyədə həyata keçirilib



Payız-qış mövsümünə hazırlıqların muxtar respublikada yüksək səviyyədə həyata keçirilməsi soyuq keçən bu fəsillərdə dövlətin öz vətəndaşlarına isti münasibətinin nəticəsi kimi dəyərləndirilir. İstənilən halda əsas olan odur ki, bu qədim diyarda dövlət vətəndaşına, vətəndaş isə dövlətinə xidmət etməkdə maraqlıdır. Payız-qış mövsümünə hazırlıqların mövcud vəziyyəti ilə yerində tanış olmaq üçün Şahbuz rayonuna üz tutduq.

Rayonda olarkən öyrəndik ki, 2015-ci il avqustun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə qarşıya qoyulmuş tapşırıqların icrası istiqamətində xeyli iş görülüb. Belə ki, həmin müşavirədə verilən tapşırıqların yerinə yetirilməsi üçün Şahbuz Rayon İcra Hakimiyyətində tədbirlər planı hazırlanıb, qısa müddət ərzində nəzərdə tutulmuş işlərin icrasına başlanılıb. Rayonda fəaliyyət göstərən təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin, eləcə də digər sosial obyektlərin qışa hazırlanması, əhalinin qış mövsümündə enerji və yanacaqla fasiləsiz təmin olunması, inzibati binaların, kəndarası yolların təmiri diqqət mərkəzində saxlanılaraq müvafiq tədbirlər həyata keçirilib.

Muxtar respublikamızda tikinti-quruculuq tədbirlərinin həcminin ildən-ilə genişlənməsi Şahbuz rayonunda da müxtəlifprofilli yeni obyektlərin həyata vəsiqə qazanmasına səbəb olub ki, bu da ilin bütün fəsillərində rayon sakinlərinə rahat yaşayıb işləmək imkanı qazandırıb. Hazırda Daylaqlı kəndində aparılan quruculuq tədbirləri də daxil olmaqla, rayonun 22 kənd yaşayış məntəqəsindən 21-də kompleks quruculuq işləri aparılıb. Türkeş kəndi istisna olmaqla, bütün kəndlərdə sosial obyektlər istifadəyə verilib, yollar abadlaşdırılıb. Təbii ki, bu işlər görülübsə, payız-qış mövsümündə iqlim şəraitindən asılı olmayaraq, belə abad kəndlərdə sakinlərin rahatlığı da təmin olunub.

Yuxarıda adıçəkilən müşavirədə qarşıya qoyulmuş tapşırıqların həlli məqsədilə rayonun bütün kənd yaşayış məntəqələrində mövsümi hazırlıqlar nəzarətə götürülərək elektrik və qaz xətləri, qazanxanalar yoxlanılıb, mövcud çatışmazlıqlar aradan qaldırılıb. Bir zamanlar Şahbuzun ucqar dağ kəndlərinə gedən daşlı-kəsəkli, nahamar yollar, eləcə də kəndlərdəki çətin və əlverişsiz yaşayış şəraiti haqqındakı söz-söhbətlər indi, sadəcə, xatirələrdə yaşayır.

Şahbuz Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar rayon ərazisində fəaliyyət göstərən 103 müasir qazanxananın hər birinə baxış keçirilib, qazanxanalarda elektrik enerjisi, təbii qaz, su təchizatı və digər texniki məsələlər araşdırılıb. Rayonda əhaliyə göstərilən kommunal xidmətin payız-qış mövsümündə də mütəşəkkil təşkili məqsədilə mövcud texnikaların saz vəziyyətdə saxlanılması üçün lazımi ehtiyat tədbirləri görülüb, mövsüm ərzində yolların vaxtında təmizlənməsi üçün maşın-mexanizmlərin təmiri başa çatdırılıb.

Payız-qış mövsümündə əhalinin içməli suya olan tələbatının ödənilməsi də mühüm məsələlərdəndir. Qeyd edək ki, rayonda bu sahədə də bir çox tədbirlər həyata keçirilib, xətlərdə olan nasazlıqlar aradan qaldırılıb. Cari ilin ötən dövründə Sələsüz kəndinə 3,9 kilometr məsafədən çəkilmiş su xətti vasitəsilə kənd daxilində 151 ailə içməli su ilə təmin edilib. Mahmudoba kəndində istifadəyə verilmiş yeni artezian quyusu 30-a yaxın ailənin içməli su problemini həll edib. Yeri düşmüşkən qeyd edək ki, artıq Şahbuz şəhərində yeni su və kanalizasiya xətlərinin çəkilişi başa çatdırılıb, yaxın zamanlarda hər iki xəttin istifadəyə verilməsi nəzərdə tutulub.

2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıqlar rayon mərkəzi olan Şahbuz şəhərində də mütəşəkkilliklə aparılıb. Rayonda mövcud olan 103 müasir qazanxananın 40-a yaxını Şahbuz şəhərində yerləşir. Bu qazanxanaların hər birinə aidiyyəti orqanlar tərəfindən ayrılıqda baxış keçirilib, onların mövsümə hazırlığı yoxlanılıb. Şəhərdəki “Azərbaycan”, “Bakı”, Məmməd Araz və Cavadxan küçələrində yollar cari təmir olunub, ümumilikdə, 3 kilometrə yaxın yola asfalt salınıb.

Şəhərdəki yaşayış binalarında da payız-qış mövsümünə hazırlıqla bağlı cari təmir işləri aparılıb, 14, 9, 8 nömrəli binaların bəzi pəncərələrinin şüşələri dəyişdirilib. Rayon mərkəzindəki yaşayış binaları fərdi istilik sistemi ilə qızdırılsa da, binalardakı bütün kommunikasiya xətlərinə baxış keçirilərək nasazlıqlar aradan qaldırılıb, zirzəmilərdə təmizlik işləri aparılıb, yanğın təhlükəsizliyi tədbirləri həyata keçirilib.

***Bəli, Şahbuz rayonunda müşahidələrimiz onu deməyə əsas verir ki, rayon sakinləri mövsümü rahat və təhlükəsiz şəraitdə başa vuracaq.***

# Torpaqlardan təyinatı üzrə istifadəyə diqqət artırılır

***Kəngərli Rayon İcra Hakimiyyətində torpaq üzərində mülkiyyət hüququnun təmin edilməsi mövzusunda maarifləndirici tədbir keçirilib.***

Rayonun inzibati ərazi dairəsi üzrə nümayəndələri və bələdiyyə sədrlərinin iştirakı ilə keçirilən tədbiri Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Hacırəddin Möhbalıyev açaraq tədbirin mahiyyəti haqqında iştirakçılara məlumat verib.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sektor müdiri İntizar Həziyev çıxış edərək bildirib ki, komitə tərəfindən torpaq qanunvericiliyinin tələblərinə əməl edilməsinin vəziyyətini müəyyənləşdirmək məqsədilə 2015-ci ilin sentyabr ayında muxtar respublikanın şəhər və rayonlarında yoxlamalar aparılıb. Yoxlamalar zamanı yerlərdə torpaqlardan istifadə ilə bağlı bir sıra qanun pozuntularına rast gəlinib. Komitə tərəfindən belə halların aradan qaldırılması üçün yerlərdə icra hakimiyyəti orqanlarının, bələdiyyələrin, fiziki və hüquqi şəxslərin nümayəndələrinin iştirakı ilə görüşlər keçirilib. Qeyd olunub ki, Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin müvafiq maddələrinə uyğun olaraq, torpaqların özbaşına tutulması qadağandır. Özbaşına tutulan torpaq sahələri qanunsuz istifadə zamanı çəkilən xərclərin əvəzi ödənilmədən aidiyyəti üzrə geri qaytarılmalıdır. Torpaqların əvvəlki vəziyyətə gətirilməsi, orada olan binalar, tikililər və qurğuların sökülməsi torpaqları zəbt edən hüquqi və fiziki şəxslər tərəfindən və ya onların hesabına həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi Faiq Səfərov çıxış edərək bildirib ki, torpaq qanunvericiliyinə əsasən, müəyyən kateqoriyaya aid edilən torpaqların başqa məqsədlər üçün istifadəsinə yalnız onun təyinatının dəyişilməsindən sonra yol verilə bilər. Torpaqların kateqoriyalarının qanunsuz dəyişdirilməsi isə İnzibati Xətalar Məcəlləsinin 90-cı maddəsində nəzərdə tutulan qaydada məsuliyyətə səbəb olur.

Qeyd olunub ki, torpaqların zəbt olunmasının qarşısını vaxtında almayan cavabdeh şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 314-cü maddəsində nəzərdə tutulan qaydada səhlənkarlıq əməlinə görə məsuliyyət daşıyırlar. Həmin əməli törədən şəxslər isə 500 manatdan 1000 manatadək miqdarda cərimə və ya 240 saatdan 460 saatadək ictimai işlə və ya 2 ilədək müddətdə islah işləri və ya 6 ayadək müddətdə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bələdiyyə rəhbərləri, işçiləri, inzibati ərazi dairəsi üzrə nümayəndələr də cinayət qanunvericiliyinə əsasən vəzifəli şəxslər hesab olunurlar və torpaqların mühafizəsinə cavabdehdirlər.

Tədbirdə rayonda olan qanunsuz tikililər və zəbt olunmuş torpaqlarla bağlı müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Səbuhi HƏSƏNOV**

*İstehsal müəssisələri*

# Gəmiqaya Mebel Fabrikində yeni çeşidlərdə məhsul istehsalına başlanılıb

***Son illər muxtar respublika iqtisadiyyatında yüksək templə inkişaf edən sahələrdən birinə çevrilən və yerli istehsalın stimullaşdırılmasında mühüm əhəmiyyətə malik olan sənaye sektorunda həyata keçirilən tədbirlər Naxçıvanın aqrar regiondan sənaye regionuna çevrilməsinə şərait yaradıb, nəticədə, muxtar respublikada müxtəlif çeşidlərdə yüksəkkeyfiyyətli məhsullar istehsal edən rəqabətqabiliyyətli müəssisələr fəaliyyətə başlayıb.***



Belə müəssisələrdən biri də “Gəmiqaya Mebel Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyətidir. Müəssisədə Almaniya, İtaliya və Türkiyə respublikalarından alınmış müasir texnoloji avadanlıqlar quraşdırılıb, müxtəlif çeşiddə keyfiyyətli məhsul istehsalı üçün geniş imkanlar yaradılıb. Mebel fabrikində divan, kreslo və yumşaq oturacaqlı stullar, döşəmə, həmçinin ofis, mətbəx, yataq mebelləri, qapı-pəncərə, dekorasiya və qapı-pəncərələrin boyanması üçün boyaqxana sexləri fəaliyyət göstərir.

Burada ağac profilli qapı və pəncərələr, modern və klassik üslubda dizayn edilmiş mebellər, sosial və inzibati binalar üçün müxtəlif avadanlıqlar istehsal edilməklə yanaşı, dizayn-dekorasiya xidmətləri də göstərilir. Fabrikdə tətbiq olunan keyfiyyətə nəzarət sistemi mebel istehsalında istifadə olunan materialların və hazır məhsulların davamlılığını, uzunömürlülüyünü təmin edir. Material kimi istifadə olunan məhsulların bir qismi Türkiyə Respublikasından, Afrika ölkələrindən, Gürcüstandan idxal olunur. Digər materialların bir qismi isə Naxçıvana məxsusdur.

Müəssisədə istehsal prosesi avtomatlaşdırılıb, texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunmaqla normal iş şəraiti yaradılıb. Burada fəaliyyət göstərən laboratoriyada müasir avadanlıqlar quraşdırılıb ki, bu da istər xammal, istərsə də hazır məhsulların keyfiyyət göstəricilərinə nəzarətin təmin olunmasına imkan verir. Hazırlanan məhsullar “Gəmiqaya” əmtəə nişanı ilə fabrikin sərgi-satış salonunda, Naxçıvan şəhərinin “Təbriz” küçəsində, Babək məhəlləsində və Ordubad şəhərində fəaliyyət göstərən mebel mağazalarında satışa çıxarılır. Müəssisədə istehsal olunan klassik, avanqard və modern mebellər ölkəmizin paytaxtında və digər regionlarda da alıcılar tərəfindən rəğbətlə qarşılanır. Hazırda Bakı şəhərinin Nərimanov və “Neftçilər” prospektlərində, Sumqayıt, Goranboy, Lənkəran şəhərlərində satış mərkəzləri fəaliyyət göstərir. Müəssisənin satış mərkəzlərinə müraciət edən müştərilərə zövqlərinə və ev şəraitinə uyğun müxtəlif çeşiddə mebellər təklif olunur. Müştərilər hazır mebelləri satış mərkəzlərindən seçə və ya sifariş verə bilərlər.

Hazırda istehlakçılar tərəfindən həm klassik, həm də modern üslubda hazırlanan mebellərə böyük tələbat var. Naxçıvan şəhərində ayrı-ayrı ünvanlarda fəaliyyət göstərən mebel mağazalarında müştərilərin bu yerli məhsula olan münasibətlərini öyrəndik. Naxçıvan şəhər sakini Nazilə Əhmədova dedi ki, yeni mənzil almışıq. Evimizin dizaynına uyğun mebel seçdik. Burada öyrəndik ki, mebellərin çatdırılması və quraşdırılması fabrikin mütəxəssisləri tərəfindən pulsuz yerinə yetirilir. Mebellərin keyfiyyətindən və göstərilən xidmətdən çox razıyıq.

Ordubad rayon sakini Gülnar Əsədova isə alıcı zövqünü oxşayan hər cür mebellərin olduğunu bildirdi və onu da qeyd etdi ki, müştərilərə seçim etmək imkanı yaradılıb. Hər bir evin ölçüsünə və dizaynına uyğun mebelləri sifariş vermək mümkündür. Bu, çox yaxşı haldır və hər bir müştərinin ürəyincədir.

Naxçıvan şəhər sakini Mahir Qafarov: İstehsal olunan məhsulların keyfiyyətli olması işin bir tərəfidirsə, onu olduğu kimi müştəriyə çatdırmaq başqa bir tərəfidir. Yəni bir-birini tamamlayan ayrı-ayrı sahələrdir. Ailə həyatı qurub Bakı şəhərində yaşayan övladım üçün mebel almaq istəyirdim. Öyrəndim ki, Bakı şəhərində də müəssisənin mebel mağazaları fəaliyyət göstərir. Həm məhsulun keyfiyyətindən, həm də göstərilən xidmətdən çox razıyam.

Məhsulları keyfiyyəti ilə seçilən “Gəmiqaya Mebel Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyəti qısa zamanda rəqabətqabiliyyətli müəssisəyə çevrilib. Burada istehsal olunan mebellər daxili bazarda özünə böyük istehlakçı kütləsi toplayıb. Müəssisədə istehsal olunan mebellərin xarici bazarlarda tanıdılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir, biznes forumlarda və sərgilərdə iştirak edilir, xarici şirkətlərin nümayəndələri ilə fikir mübadilələri aparılır, bu sahə ilə məşğul olan sahibkarların təcrübələrindən bəhrələnməklə xarici bazarlardan alıcı cəlb edilməsinə çalışılır. Həyata keçirilən kompleks tədbirlərin nəticəsidir ki, müəssisənin Gürcüstanın Tbilisi və Batumi şəhərlərində satış mərkəzləri yaradılıb. Digər xarici ölkələrdə də müəssisədə istehsal olunan mebellərin satışa çıxarılması nəzərdə tutulur.

Fabrikdə 348 nəfər daimi işlə təmin olunub. Kollektiv əməyin məhsuludur ki, “Gəmiqaya Mebel Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsullarına tələbat artıb, ixrac potensialı genişlənib.

İqtisadi əlaqələri genişlənən müəssisədə daxili bazarın tələbatına uyğun yeni istehsal sahələrinin yaradılması mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılıb, silikon yorğan, döşək və yataq bazası istehsalı sahələrinin biznes-planı hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim olunub. Ümumi dəyəri 1 milyon 800 min manat olan layihənin reallaşması üçün Sahibkarlığa Kömək Fondundan 2014-cü ilin iyun ayında 1 milyon 200 min manat dövlət maliyyə dəstəyi göstərilib və layihənin icrasına başlanılıb. Layihəyə uyğun olaraq, müəssisənin ərazisində yeni istehsal sahəsi inşa olunub. Türkiyənin “Elektroteks” və “İMS Makina” şirkətlərinin avadanlıqları alınıb gətirilib və idxal olunan dəzgahlar həmin şirkətlərin mütəxəssisləri tərəfindən quraşdırılıb. Bu istehsal sahəsində çalışan yerli mütəxəssislərin ixtisasartırma kurslarında iştirakı təmin olunub. İstehsal gücü saatda 200 ədəd yorğan, gündə 100 ədəd döşək və 100 ədəd yataq bazası olan yeni istehsal sahəsi daxili bazarı yerli məhsullarla təmin edir.

**Kərəm HƏSƏNOV**

## AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda qorunan əlyazmalar tariximizi öyrənmək baxımından əhəmiyyətli mənbədir

***Azərbaycan xalqının maddi və mənəvi sərvəti olan yazılı abidələrimizə dünyanın bir sıra zəngin kitabxanalarında, əlyazma fondlarında rast gəlmək olar.***

Əvvəllər mühitlərin bir-birinə təsiri səyyahların və elm adamlarının tanış olduqları diqqətçəkən yeniliklərin duyulduğu materialları öz ölkələrinə aparmaları, ya da əsərlərində bu məlumatlardan bəhs edib əsaslandırmaqları hesabına yaranırdı. Ərazidən əraziyə daşınan fikirlər daşındığı regionun tələblərinə uyğun istiqamət və mövqe dəyişdirirdisə də, ümumiləşmiş fikir olduğu kimi qalırdı. Bu, dildə də, ədəbiyyatda da belədir. Bəzi əsərlərdə isə ortaq arqumentlər, ortaq fikirlər nəzərə çarpır. Bu oxşarlıqlar, fərqliliklər, bəhrələnmə, istinadlar, icazəli və icazəsiz köçürmələr xalqların ortaq mədəniyyətlərinin tədqiqi zamanı ortaya çıxan və mübahisələrə səbəb olan məsələlərdir.

Başqa xalqlar tərəfindən mənimsənilən bir çox dahi şəxsiyyətlərimizin bəşəri istedadı onların dünyada olan nüfuzunun və dünyanın onlara olan maraq və rəğbətinin təcəssümüdür.

Tarixi öyrənmək baxımından vacib bir sıra faktorlar vardır. Əlyazmalar da bu baxımdan son dərəcə əhəmiyyətlidir. Ona görə də bu qəbildən olan sənədlərin, məlumatların qorunması baxımından fondlar mühüm əhəmiyyətə malikdir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Əlyazmalar Fondu da bu əhəmiyyətli işə xidmət edir. Bu fond 8 aprel 2005-ci ildə fəaliyyətə başlamışdır.

Fondun əsas fəaliyyət istiqamətləri Naxçıvan əlyazmalarının toplanması, sistemə salınması, kataloqlaşdırılması, qorunması, tədqiqi, nəşri və təbliğidir. Əlyazmalar Fondunun fəaliyyəti barədə fondun rəhbəri, ərəb-fars dilləri üzrə mütəxəssis Fəxrəddin Eylazovla söhbətləşdik:

***– Son illərdə fonda daxil olan yeni əlyazmalar haqda məlumat verməyinizi xahiş edirik.***

– Əlyazmalar Fondunun zənginləşdirilməsi məqsədilə aparılan ekspedisiyaların nəticəsi olan 6 əlyazma əldə edilib. Bunlardan üçü İslam tarixinə aiddir. Əldə olunan digər əlyazmalar Hacı Molla Məhəmməd Naxçıvaninin "Səhabəd-Dümu" ("Buludların göz yaşları") əsərinin üçüncü cildi olan "Məzahirul-nur" ("Nurların hüzurunda")dur. XIX əsr ictimai mühiti üçün səciyyəvi xarakter daşıyan Hacı Molla Məhəmməd Naxçıvaninin "Səhabəd-Dümu" əsəri fəlsəfi baxımdan olduqca böyük əhəmiyyət kəsb edir. İstər İslam fəlsəfəsi nöqteyi-nəzərindən, istərsə də bəşərilik baxımından özündə qeyri-adi hadisələri canlandıran və insanları riqqətə gətirən əsər fenomenliyi ilə diqqəti cəlb edir. Bu baxımdan əsərin müəyyən hissələri tədqiqata cəlb edilmiş, müəllifin həyatı və yaradıcılığı haqda məlumatlar əldə olunaraq məqalə və monoqrafiya şəklində çap edilmişdir. Digər əlyazma isə Salman Mümtaz tərəfindən hazırlanmış folklor toplusudur.

Həmçinin Kazım bəy Ordubadinin "Tibbə dair qeydlər" əsəri və ərəb dilinin qrammatikası ilə bağlı bir naxçıvanlı müəllifin şərh etdiyi yeni bir əlyazma üzə çıxarılmışdır. Hal-hazırda bu əlyazmanın üzərində müəyyən işlər aparılmaqdadır. Qeyd edək ki, hələ ki, bu naxçıvanlı müəllifin adı və soyadı dəqiqləşdirilməmişdir.

Adıçəkilən əlyazma mətnlərinin əsas xüsusiyyəti ondan ibarətdir ki, əlyazmalar müxtəlif xətlərlə yazılmış, sonralar onların katiblər tərəfindən üzü köçürülmüşdür. Bu sadaladığımız əsərlər cari ilin sonunadək fondun balansına daxil ediləcəkdir.

***– Naxçıvanın milli-mənəvi sərvəti olan əlyazma mətnlərinin araşdırılması və digər məsələlərlə bağlı hansı işlər görülmüş və görülməsi nəzərdə tutulub?***

– Fondda Naxçıvan ərazisində mövcud olan əlyazmalar sistemli şəkildə tədqiq olunmuş, qeydə alınmışdır. Bu sahədə işlər davam etməkdədir. Tədqiqat dövründə Məhəmməd Həsən Ordubadinin, Bayrək Quşçuoğlunun, Mirzə Müslüm Qüdsinin, Şeyx Məhmud Şəbüstərinin, Salik Ordubadinin, Mirzə Məhəmməd Haşim ibn Müseyib Naxçıvaninin əlyazmaları tekstoloji və filoloji cəhətdən araşdırılmışdır. Əli Əkbər ibn Məhəmmədrza Dəllak Naxçıvaninin "Muxtarnamə" əsərinin paleoqrafik xüsusiyyətləri müəyyənləşdirilmiş və həmin dövrü əhatə edən digər nümunələrlə müqayisəli şəkildə öyrənilmiş, orta əsr Naxçıvan əlyazmalarının paleoqrafik və orfoqrafik xüsusiyyətləri, dil tarixi geniş şəkildə tədqiq edilmişdir. Həmçinin Naxçıvanla bağlı aşkar olunan bir sıra əlyazmalar tədqiq edilmiş, onların ilkin elmi kataloqları hazırlanmışdır. Tədqiqatlar zamanı Əbu Bəkir ibn Xosrov Əl-Ustadinin 17 fəsildən ibarət "Munisnamə" əsəri geniş şəkildə araşdırılmış, Suli Fəqihin 4800 beytdən ibarət olan "Yusif və Züleyxa" poeması filoloji təhlil edilmişdir.

İslam tarixi, ədəbiyyat tarixi, humanitar və dəqiq elmlərə dair bir çox əlyazmalar və kataloqlar, cünglər və sair bu kimi mənbələr Naxçıvanın öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Əlyazmalar Fondunda nadir sənət nümunələrinin kataloqlaşdırılmasına başlanılmışdır. Fondda 451 adda əlyazma toplanmışdır. Toplanılan əlyazmalar arasında Naxçıvan tarixi və mədəniyyəti ilə bağlı bir sıra nadir sənət nümunələri, qədim kitab və məktublar vardır ki, bu da qədim Nuh yurdunun öyrənilməsi baxımından olduqca böyük əhəmiyyətə malikdir.

Ümumiyyətlə, fonda müxtəlif mənbələrdən 80-dən çox naxçıvanlı alim, şair və sənətkarlar haqqında məlumat və onların bəzi əsərləri toplanılmış, ilkin tədqiqata cəlb edilmişdir. Aparılan elmi araşdırmalar nəticəsində naxçıvanlı alim, şair, sənətkarlar və onların əsərləri haqqında mənbələrdən əldə edilmiş ilkin məlumatlar əsasında biblioqrafik cədvəl hazırlanmışdır. Bundan başqa, Məhəmməd Naxçıvaninin Təbriz Milli Kitabxanasına hədiyyə etdiyi kitabların kataloqu tərəfimizdən tərcümə və şərh edilərək "Tusi" nəşriyyatında nəşr olunmuşdur.

Ümumilikdə, qədim diyarın minilliklərindən xəbər verən 150-yə yaxın əlyazma nümunəsinin ilkin kataloqlaşdırılması işi başa çatdırılmışdır. 100-dən artıq bütöv olmayan əlyazma isə tam bərpa olunduqdan sonra kataloqlaşdırılacaq. Hazırlanan kataloqda regionla bağlı əlyazmaların müəllifi, mövzuları, eyni zamanda çap tarixi, nəşr olunduğu yer, habelə əlyazmanın şəkli, kağız materiallarının növü, səhifə həcmi, bir sözlə, bütün kataloq məlumatlar öz əksini tapacaq.

Son olaraq onu deyək ki, muxtar respublikamızda hər bir sahədə olduğu kimi, elmin inkişafı istiqamətində də böyük uğurlar əldə olunmuşdur. Milli-mənəvi sərvətimiz olan qədim əlyazma nüsxələri tədqiqata cəlb olunmuş və nəticədə, tərcümə edilərək öz doğma dilimizdə ictimaiyyətin ixtiyarına verilmiş, bu da ilk yaşayış və şəhərsalma yeri kimi Naxçıvan tarixi haqqında həqiqətlərin aşkara çıxmasına böyük təsir göstərmişdir. Bu gün dövlətin yüksək qayğısı ilə əlyazma mətnlərində qorunan tarix öyrənilərək, tədqiq olunaraq gələcək nəsillərə miras saxlanılır. Ümid edirik ki, gələcək nəsil də bizim kimi tariximizə sahib çıxacaq, onu qoruyacaq, təbliğ edərək soy-kökü ilə qürur duyacaq.

✍ **Nərgiz İSMAYILOVA**

## Qaz cihazlarının istismarı zamanı yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunmalıdır

*Qarşıdan qış mövsümü gəlir. Havaların soyuması ilə əlaqədar olaraq, muxtar respublika ərazisində əhalinin mavi yanacağa olan tələbatı artmağa başlayıb. Ötən illərin təcrübəsi göstərir ki, bəzi hallarda vətəndaşlar tərəfindən qaz cihazlarından təhlükəsizlik qaydalarına uyğun istifadə edilməməsi səbəbindən çox vaxt insan itkisi ilə nəticələnən partlayış, yanğın və zəhərlənmə kimi bədbəxt hadisələr baş verir. Sakinlər hələ də təbii qazdan, ümumiyyətlə, qaz cihazlarından istifadə edərkən yanğın təhlükəsizliyi qaydalarına tam əməl etmirlər. Onlar standartlara uyğun olmayan, istehsal mənşəyi bilinməyən qaz cihazlarından istifadə edir, qaz xətlərinin özbaşına çəkilməsi, qaz cihazlarının yerinin dəyişdirilməsi, təmiri və əlavə qaz cihazlarının quraşdırılması kimi hallara yol verirlər.*

Bütün bunları nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi qaz cihazları və qaz təsərrüfatı ilə bağlı təhlükəsizlik qaydalarının tələblərini bir daha istehlakçıların nəzərinə çatdıraraq aşağıdakı yanğın təhlükəsizlik qaydalarına ciddi əməl olunmasını vacib hesab edir.

Qaz təsərrüfatının mövcud olduğu sahələrdə yanğın, partlayış və zəhərlənmə kimi hallardan mühafizə olunmaq üçün mülkiyyət formasından asılı olmayaraq, hər bir təşkilatın, həmçinin hər bir vətəndaşın bir sıra qaydalara, xüsusən də yanğın təhlükəsizliyi qaydalarına əməl etməsi zəruridir. Qaz təsərrüfatı ilə bağlı yanğın təhlükəsizliyi qaydalarına tikinti və quraşdırma işlərindən başlamaq lazımdır. Təyinatından asılı olmayaraq, bina və qurğulara qaz kəməri çəkilərkən kəmər binanın bünövrəsindən binaya polad qılaf daxilində keçməlidir. Qılafın daxilində qaz kəmərinin birləşmə hissələri olmamalı, torpaqdan çıxdığı yerdə isə zədədən mühafizə edilməlidir. Qaz kəməri binanın üstündən çəkilərsə, kəmərin aşağı hissəsindən bina örtüyünə qədər məsafə ən azı 50 santimetr olmalı, divarboyu çəkildiyi halda isə pəncərə və qapıların qarşısını kəsməməlidir. Qaz kəmərinin balkon və pəncərə altından keçdiyi yerdə birləşmə olmamalı, kəmər elektrik açarına qədər ən azı 50 santimetr məsafədə olmalı, əsas bağlayıcı açar binadan xaricdə quraşdırılmalıdır. Qaz kəməri elə çəkilməlidir ki, o başqa otaqlara deyil, bilavasitə, qaz işlədən qurğunun yerləşdiyi otağa daxil olsun. Bir sıra təhlükəli hallara şərait yaratdığından lift şaxtası, havadəyişmə şaxta və kanalları, eləcə də tüstü boruları ilə qaz kəmərinin çəkilməsi qadağan olunur.

Təhlükəsizliyi təmin etmək üçün yaşayış binalarında digər tələblər də yerinə yetirilməlidir. Birinci növbədə, yaşayış binasının qaz kəməri polad borudan olmalı, suvaq altından deyil, açıq havada çəkilməlidir. Qazın pilətəyə verilməsində rezin şlanqlardan istifadə olunması qəti qadağandır. Qaz pilətəsi qurulan mətbəxin hündürlüyü 2,2 metrdən az olmamalı, mətbəxin pəncərəsi açıq nəfəslik və havadəyişmə kanalı ilə təmin edilməlidir.

Bu qaydaların pozulması ilə yanaşı, bir sıra digər səbəblər də yanğın baş verməsinə şərait yaradır. Məişətdə işlədilən qaz cihazlarından törənən yanğınların əsas səbəbi boru kəmərlərində, birləşmə qovşaqlarında kipliyin pozulması və qaz pilətələrinin odluqlarından qazın sızmasıdır. Təbii qaz, eləcə də mayeləşdirilmiş balon qazı hava ilə birlikdə partlayış təhlükəli qarışıqlar əmələ gətirməyə qadirdir. Elə buna görə də mənzildə və digər yerlərdə qaz qoxusu hiss etdikdə kibrit, alışqan yandırmaq, hər hansı elektrik qurğu və cihazlarından istifadə etmək, o cümlədən onları cərəyana qoşmaq və ayırmaq olmaz. Açıq oddan istifadə etmək, siqaret çəkmək də qaz dolmuş yerlərdə partlayış və yanğına səbəb ola bilər. Qazın sızması müxtəlif səbəblərdən ola bilər. Əgər sızma qaz cihazındakı kranın açıq qalmasından əmələ gəlmişsə, onu bağlamaq, mənzilin havasını dəyişmək üçün qapı və pən-



cərələri açmaq, hava axını yaratmaq lazımdır. Əgər qazın sızması qaz kəmərinin və ya qaz cihazının zədələnməsindən əmələ gəlmişsə, onda qazdan istifadə etmək olmaz və təcili qəza xidmətinə (**104**) xəbər vermək lazımdır. Qaz kəmərlərindən, qaz balon və cihazlarından qazın sızmasını yoxlamaq üçün açıq oddan istifadə etmək qəti qadağandır.

Qazdan istifadəni dayandırarkən odluğu üfürməklə söndürmək olmaz. Belə hallarda od sönə bilər, lakin odluqdan qaz çıxmaqda davam edəcəkdir. Bunun nəticəsində otaqda partlayış təhlükəli qaz-hava qatışığı toplaşa bilər.

Qaz cihaz və qurğularının yerinin dəyişdirilməsi yalnız bu sahə üzrə mütəxəssislər tərəfindən həyata keçirilməlidir.

Zəhərlənməyə səbəb olan amillərdən biri də əhali tərəfindən yaşayış sahələrində kustar qaydada hazırlanmış qeyri-standart qızdırıcı qaz cihazlarından və su qızdırıcılarından istifadə olunmasıdır. Belə ki, bu cihazların aidiyyəti dövlət nəzarət orqanlarının icazəsi olmadan müəyyən sexlərdə istehsal edilməsi, satışa buraxılması, əksər hallarda qüvvədə olan norma və qaydaların tələblərinə zidd olaraq istifadəsi, qadağan olunmuş yerlərdə quraşdırılması qəzaların başvermə ehtimalını daha da artırır. Buna görə də satış məntəqələrindən, əsasən, zavodda istehsal edilmiş qaz cihazlarını əldə etmək məsləhət görülür. Qeyri-standart qaz cihazlarından istifadə edilməsinə, ümumiyyətlə, yol verilməməlidir.

Qaz cihazları alan zaman onun uyğunluq sertifikatını və texniki pasportunu satışı həyata keçirən mağaza sahiblərindən tələb etmək vacibdir. Cihaz quraşdırıldıqdan sonra onun istifadə qaydaları ilə tanış olmaq lazımdır. Çünki partlayış, yanğın və dəm qazı ilə zəhərlənmə kimi qəza hadisələrinin əksəriyyəti bu qaydaları bilməməkdən və ya onlara riayət edilməməsi səbəbindən baş verir. Bunun üçün cihazın istismarı qaydaları, avtomatik təhlükəsizlik qurğusu ilə təchiz olunub-olunmamasını, tüstü borusunun düzgün quraşdırılmasını, ən vacibi isə hansı şəraitdə normal rejimdə işləməsi məsələlərini dəqiq bilmək və yadda saxlamaq lazımdır.

Qazla əlaqədar təhlükəsizlik qaydalarını hamı bilməli, ona hər bir vətəndaş ciddi əməl etməlidir. Bu qaydalara əməl etməklə biz zəhərlənmə, yanğın, partlayış təhlükəsini aradan qaldıra, özümüzü, ailə üzvlərimizi, ətrafdakı insanları bədbəxt hadisələrə düçar olmaqdan qurtara bilərik.

***Qaz cihazları ilə bağlı hər hansı təhlükə ilə üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin "101" xidmətinə məlumat verilməlidir.***

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

## Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Şərur rayonunun Kürçülü icmasının tender komissiyası icma qrupunun hazırladığı "Elektrik sistemlərinin təmiri və genişləndirilməsi" adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

* *Maraq məktubu*
* *Nizamnamə*
* *Maddi-texniki baza və insan resursları barədə məlumat*
* *Son illərdə infrastrukturtipli layihələrdə iş təcrübəsinin olması*
* *Maliyyə vəziyyəti barədə arayış*

Qeyd olunmuş sənədlər toplusunu 10 noyabr 2015-ci il, saat $18^{00}$-ə kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Şərur rayonu, Kürçülü kəndi tender komissiyası icma qrupunun sədri Elmar Kərimov***
***Əlaqə telefonu: (051) 943-06-75***

### İtmişdir

Naxçıvan şəhəri, Şahtaxtinski küçəsi, döngə 3, ev 21-də yaşamış Quliyev Firudin Məmməd oğlunun adına olan 3253 inventar nömrəli texniki pasport və 104013002364 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Orucov Şirəli Məhərrəm oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Türkiyə vətəndaşı Salih Düzencinin adına Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 819